**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Təsdiq edirəm:***
**Filologiya fakültəsinin dekanı**
**Fil.e.n., dos. M.T.Vəliyev ___________**
**“____“__________________2015-ci il**

# AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATI VƏ BƏDİİ TƏRCÜMƏ ELMİ-TƏDQİQAT LABORATORİYASININ 2015-Cİ İL ÜZRƏ

# H E S A B A T I

**ETL-in RƏHBƏRİ:**

**Bakı – 2015**

## 1. Giriş

Azərbaycan mühacirət ədəbiyyatı və bədii tərcumə ETL Bakı Dövlət Universiteti Böyük Elmi Şurasının 20.04.1990-cı il tarixli qərarı, Azərbaycan Təhsil Nazirliyinin 10 fevral 1992-ci il tarixli 98 saylı əmri, BDU rektorluğunun 27 aprel 1992-ci il tarixli 1/205 saylı əmri iə təşkil olunub. 2015 -ci il hesabat ilində "Mühacirət ədəbiyyatı müntəxabatının toplanması və nəşrə hazırlanması" mövzusu mərhələli formada davam etdirilmişdir. Bu hesabat ilində 2 Beynəlxalq jurnal nəşri, 1 xaricdə məqalə, 5 Respublika daxilində məqalə, 8 Beynəlxalq konfransda iştirak, 1 Respublika konfransında iştirak, 1 Respublika səviyyəli konfransın (B.Vahabzadə-90) təşkili, 1 Beynəlxalq simpozium təşkilatçılığı və 1 namizədlik dissertasiyasına opponentlik işi yerinə yetirilmişdir.

Bu nəşrlərdən əlavə laboratoriya elmi işçiləri "Mühacirət ədəbiyyatı müntəxabatının toplanması və nəşrə hazırlanması" istiqamətində hər il öhdələrinə götürdükləri mövzularının 2015 – cü il mərhələsini yerinə yetirmiş. Onlar əl yazması hüququnda laboratoriyanın arxivində saxlanılır və onların qısa annotasiyası hesabata əlavə olunur.

## 2. Struktur və ştat cədvəli:

| № | Soyadı, adı, atasının adı | Vəzifəsi | Ştat vahidi | Elmi dərəcəsi | Təvəllüd |
|---|---|---|---|---|---|
| 1. | Hüseynova Nəzakət Hüseyn q. | b.e.işçi | 1 ştat | fil.ü.f.d (Dos. dr.) | 30.05.1965 |
| 2. | Nağıyeva Səidə Faiq q. | k.e.işçi | 1 ştat | fil.ü.f.d. | 20.08.1972 |
| 3. | Ağamalıyeva Təranə Lətif q. | k.e. işçi | 1 ştat | fil.ü.f.d. | 20.08.1966 |
| 4. | Əhmədova Nigar Tofiq qızı | e. işçi | 1 ştat, | | 12.03.1971 |
| 5. | Hüseynova Sevil Dünyamin q. | b.lab. | 1 ştat Analıq məzuniy. | | 28.03.1980 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6. | Mustafayev Zaur Telman o. | e. işçi | 1 ştat | | 02.01.1967 |
| 8. | Novruzova Heyran Fəttah q. | k.e.işçi | 0,5 ştat | | 10.02.1967 |
| 9. | Məmmədova Samirə Məmməd | e.i | 0,5 ştat | fil.ü.f.d. | 22.10.1979 |

**5. İstiqamət** – Azərbaycan ədəbiyyatı tarixi.

**Problem**: Mühacirət ədəbiyyatının tədqiqi

**Mövzu**: Mühacirət ədəbiyyatı müntəxabatının toplanması və nəşrə hazırlanması.

**İş:2.** Toplanmış nümunələrin müntəxabat üçün seçilməsi və sistemləşdirilməsi.

**Mərhələ:** Mühacirətdə yaşayıb-yaratmış Azərbaycan şair və yazıçılarının əsərlərindən örnəklərin toplanması

**İcraçılar:** F.ü.f.d., dos.N.Hüseynova
f.ü.f.d., S.Nağıyeva
f.ü.f.d., S.Məmmədova
f.ü.f.d ., T.Ağamalıyeva
e.,i. N. Əhmədova
e.i.,Z.Mustafayev
k.e.i.,H. Novruzova

**Qısa annotasiyası və yerinə yetirilməsi**: Bu hesabat ilində laboratoriya öz üzərinə götürdüyü "Mühacirət ədəbiyyatının toplanması" adlı plan işini yerinə yetirmişdir."Mühacirət ədəbiyyatı müntəxabatının toplanması və nəşrə hazırlanması" istiqamətində iş aparan əməkdaşlar mühacirətdə yaşayıb-yaratmış Azərbaycan şair və yazıçılarının əsərlərindən örnəklərin plan işinə uyğun mərhələsini toplamışlar

Bu seçmələr zamanı bütün əməkdaşlardan böyük ustalıq tələb olunur. Əsas diqqət müntəxəbat üçün seçilən bu əsərlərin həmin dərs vəsaitindən yararlanacaq gələcək nəslə hansı ideyaları aşılayacağına yönəlməlidir.

**Dos., b.e.i., f.ü.f.d. N.H. Hüseynova** məsul icraçı kimi toplanan materialların uyğun olaraq seçilməsinə nəzarət etmiş və eyni zamanda üzərinə götürdüyü plan işinin 2015 – ci il üçün nəzərdə tutduğu Əmin Abid Gültəkinin yaradıcılığından (Sevgili Bakıya, Aldı,getdi, Buzlu cəhənnəm, Azərbaycan istiqlalı, Bayrağım və istiqlalim, Anama və s.)

toplanan müntəxəbatın məramına uyğun olaraq seçmələr etmişdi. Bu hesabat ili ərzində həmcinin 1 elmi məqaləsi Türkiyədə çıxan "Kültür evreni" beynəlxalq elmi jurnalda, 1 məqaləsi isə "B.Vahabzadə-90" kitabında yer almışdır. Eyni zamanda Türkiyədə çap olunan 2 beynəlxalq səviyyəli elmi jurnalların ("Kültür evreni", "Bilimsel Eksen" jurnalları) redaktoru, Azərbaycan təmsilçisi və redaksiya heyətinin üzvü, Bakı Dövlət Universitetinin filologiya fakültəsində çıxan "Dil və ədəbiyyat" beynəlxalq elmi jurnalın redaksiya heyətinin üzvü olmuşdur. 4 beynəlxalq, 1 regional simpoziumda iştirak etmişdir. O cümlədən bir beynəlxalq konfransın təskilində iştirak etmiş və bir namizədlik işinin opponenti olmuşdur.

Laboratoriyanın kiçik elmi işçisi, f.ü.f.d. **S.F.Nağıyeva** (Məmmədova) plan işinə uyğun olaraq 2015-cü il mərhələsi üçün M.Ə.Rəsulzadənin yaradıcılığından müraciət edərək, "NİzamI" və "Əsrimizin Səyavuşu" əsərlərindən ixtisarlar şəklində toplanılan müntəxəbatın istiqamətinə uyğun seçmələr etmişdir. Eyni zamanda tədqiqatçının bir məqaləsi bu hesabat ilində "B.Vahabzadə-90" illiyi münasibəti ilə keçirilən məqalələr toplusunda yer almışdır.

Filologiya üzrə fəlsəfə doktoru, kiçik elmi işçi **Ağamalıyeva Təranə** laborotoriyanın plan işinə uyğun olaraq 2015-ci il üçün Səməd Ağaoğlunun yaradıcılıgından toplamlar etmiş və "Hürriyyət", "Öyrətmən Qafur", "Boyük ailə" və.s. əsərlərindən müntəxəbatın istiqamətinə uyğun olaraq seçmələr etmişdir. "B.Vahabzadə-90"

Filologiya üzrə fəlsəfə doktoru, e**.i.,Əhmədova Nigar** bu hesabat ili ərzində laboratoriyanın plan işinə uyğun olaraq Ə.Topçubaşov, Süleyman Təkinər, Hilal Münşi yaradıcılığını tədqiq etmişdir. Eyni zamanda tədqiqatçının bu hesabat ilində 1 məqaləsi çapdan çıxmışdır.

Filologiya üzrə fəlsəfə doktoru, elmi işçi **Məmmədova Samirə** plan işinin 2015- ci il mərhələsi üçün müntəxəbata görkəmli ədib, ədəbiyyatşünas Mustafa Haqqı Turkəqulun "Azərbaycanlı türk şairi Hüseyn Cavid" monoqrafiyasından bəzi hissələri(ixtisarla) və ədibin "Qafqazya" dərgisində yazdığı elmi- tənqidi məqalələrindən müntəxəbat üçün seçmələr etmişdir . Eyni zamanda tədqiqatçı "B.Vahabzadə-90" illik yubileyi münasibəti ilə keçirilən konfransda iştirak etmiş.

Laboratoriyanın elmi işçisi **Z.T.Mustafayev** bu mərhələdə Mirzə Bala Məmmədzadənin yaradıcılığı ilə məşğul olmuş. Onun əsərlərindən seçmələr etmiş. Mirzə Bala Məmmədzadə azərbaycanın tarixini ədəbi müstəvidə yaşadan ədiblərimizdəndir. Z. Mustafayevin bu hesabat ilində bir məqaləsi çap olunmuşdu.

**6. Dərc olunmuş elmi işlərin xarakteristikası**

**ÇAP OLUNMUŞ ELMİ İŞLƏRİN SİYAHISI**

**RESPUBLİKADA ÇAP OLUNMUŞ ELMİ İŞLƏRİN SİYAHISI**

| №№ | Mövzunun adı | Nəşrin adı, tarixi, N-si, səhifəsi | Müəlliflər |
|---|---|---|---|
| 1 | Mühacirət ədəbiyyatı tarıxından: Almas İldırımın mühacirət dövrü yaradıcılığının əsas xüsusiyyətləri | B.Vahabzadə-90. Kitab. Elm və təhsil. Bakı.2015. səh.297-302. Məqalə | Hüseynova Nəzakət |
| 3 | İlyas Əfəndiyevin “Geriyə baxma, qoca” romanında milli xarakter axtarışı | B.Vahabzadə-90 Bakı, 2015. Səh.91-95 Məqalə | Nağıyeva (Məmmədova) Səidə |
| 4 | Adil Babayev poeziyasında Vətən duyğusu | B.Vahabzadə-90 Elm və təhsil. Bakı.2015. səh.408-412. Məqalə | Ağamalıyeva Təranə |
| 8 | Azərbaycan Mühacirət ədəbiyyatında cümhuriyyət tarixi | B.Vahabzadə-90.Elm və təhsil. Bakı.2015. səh.343-348. Məqalə | Məmmədova Samirə |
| 9 | Müasir mühacirət ədəbiyyatının səciyyəvi cəhətləri | “Təhsil, şəxsiyyət.cəmiyyət” Konfransinin materialları. Bakı. 17 dekabr 2014. Məqalə | Zaur Mustafayev |

| | | | |
|---|---|---|---|
| 10 | Об употреблении глагольной приставки пере - при | Dil və ədəbiyyat. BDU. 2(90). Bakı – 2015. Məqalə | Əhmədova Nigar |

Laboratoriyanın əməkdaşları 4 **Respublika konfransının** iştirakçısı olmuşdur.

O cümlədən: Dos. B.e.i., **Nəzakət Hüseynova**

"B.Vahabzadə-90 illiyinə həsr olunmuş Respublika Elmi Konfransı"1-2 may 2015 (BDU)

K.e.i., f.ü.f.d.**Səidə Nağıyeva(Məmmədova**) B.Vahabzadə-90 illiyinə həsr olunmuş Respublika Elmi Konfransı.19 may 2014

E.i., f.ü.f.d **Samirə Məmmədova.**

B.Vahabzadə-90 illiyinə həsr olunmuş Respublika Elmi Konfransı"1-2 may 2014 (BDU)

K.e.i., f.ü.f.d.**Təranə Məmmədova (Ağamalıyeva)**

B.Vahabzadə-90 illiyinə həsr olunmuş Respublika Elmi Konfransı"1-2 may 2014 (BDU)

**7. Xarici dövlətlərin təhsil və elmi müəssisələri ilə əlaqələr.**

**7.1. Elmi əməkdaşlıq.**

**Xaricdə jurnal nəşri:**

**B.e.i., fil.e.n. Hüseynova Nəzakət Hüseyn qızı:**

Türkiyənin Ankara şəhərində dərc olunan iki beynəlxalq və hakemli, elmi - humanitar dərgiSİnin elmi redaktoru, Azərbaycan təmsilcisi və hakem heyətinin üzvüdür.

1. "Kültür Evreni" ISSN: 1380 – 6197 (üç ayda bir yayımlanan humanitar-elmi dərgi).

2. "Bilimsel Eksen" ISSN 1309 – 5811 (üç ayda bir yayımlanan humanitar-elmi dərgi).

**7.2. Beynəlxalq konfrans, konqres və simpoziumlarda iştırak.**

**B.e.i., fil.e.n. Hüseynova Nəzakət:**

1. ” 5.Uluslararası Bolu halk Kültürü ve Koroğlu sempozyumu”. 26-28 sentyabr 2015.Bolu ,Türkiyə

## 7.4. XARİCDƏ ÇAP OLUNMUŞ MƏQALƏLƏRİN SİYAHISI

| № | Mövzunun adı | Jurnalın adı, tarixi, №-si, səhifəsi | Müəlliflər |
|---|---|---|---|
| 1 | Koroğlu dastanının poetikası | Bolu Halk kültürü ve Köroglu. Kitabı. “ Akçağ” nəşriyyatı, Türkiyə. S. 806- 815 | Dos. Hüseynova Nəzakət |

Bu nəşrlərdən əlavə laboratoriya elmi işçiləri bu istiqamətdə hər il öhdələrinə götürdükləri mövzuları yerinə yetirmiş. Onlar əl yazması hüququnda laboratoriyanın arxivində saxlanılır .

**15. Əsas nəticələr.**

Hesabat ilində ETL əməkdaşları elmi-tədqiqat işlərini uğurla davam etdirmiş, əsas diqqəti Azərbaycan mühacirət ədəbiyyatının toplanması problemlərinə yönəltmişlər. Bunun başlıca səbəbi XX əsrin əvvəllərində siyasi əqidələrinə və türkçülük meyllərinə görə Rus imperiyasının təqiblərinə məruz qalmışvə bunun da nəticəsində başqa ölkələrə mühacirət etmiş şair və yazıçılarımızın o dövrdə yazıb-yaratdıqlarını toplamaqla gələcək nəsillərə çatdırmaqdır.

Hesabat ilində laboratoriyanın əməkdaşlarının müxtəlif mövzularda 10 məqalə yazmış, Azərbaycanda və xaricdə çıxan elmi nəşrlərdə çap etdirmiş, respublikamızda və xarici ölkələrdə keçirilən bir sıra elmi məclislərə - simpozium və konfranslara qatılmış, maraqlı məruzələrlə çıxış etmişlər.

**ETL müdiri:**